**Audit**

Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Kütləvi informasiya vasitələrində auditlə bağlı aktual məsələlər

Hörmətli oxucular, cəmiyyətdə öz xüsusi mövqeyi ilə seçilən KİV məhsullarının istehsalı ilə məşğul olan kommersiya və qeyri-kommersiya təşkilatlarında, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə aparılan təsərrüfat əməliyyatlarının aktuallığını nəzərə alaraq, audit zamanı anlaşılmaz məqamların aradan qaldırılmasına və düzgün istiqamətlənməsinə kömək etmək məqsədilə izahlarımızı təqdim etmək istəyirik.

Hazırda Azərbaycan Respublikasında KİV məhsullarının istehsalı və satışı ilə məşğul olan təsərrüfat subyektlərinin əksəriyyəti Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya hüquqi şəxsləri və ya fərdi sahibkarlardır. Bu o deməkdir ki, onların əsas məqsədləri mənfəət əldə edilməsinə yönəldilən sahibkarlıq fəaliyyətidir. KİV məhsullarının istehsalı və satışı ilə məşğul olan hüquqi şəxslər də digər kommersiya təşkilatları kimi məcburi auditin obyektidirlər.

KİV-lərin illik maliyyə hesabatlarının (və ya maliyyə-təsərrüfat fəaliyyətinin) auditi zamanı onların fəaliyyətinə spesifik xas olan və müəyyən aktual məqamlarla rastlaşmaq mümkündür. Məsələn, KİV redaksiyası tərəfindən istehsal olunan məhsulun - qəzet və ya jurnalların müxtəlif satış formalarında, yəni abunə yolu ilə, səyyar satdırmaq yolu ilə, vəkalət alan (yayım firmaları) vasitəsilə komisyon satışı həyata keçirilir ki, bu da digər adi qaydada satış əməliyyatlarından xeyli fərqlənir. Digər tərəfdən də mətbuat orqanlarının müəyyən tirajla istehsal etdiyi dövri mətbu nəşrləri, yəni qəzet və jurnalları satışdan geri qayıtmaya məruz qaldığına görə, onların sabit satış dövriyyəsi yaranmır. Dövri mətbu nəşrlərdə dərc edilən məqalələrin və tele-radio şirkətlərində hazırlanan TV proqramlarının əsasən müəlliflik hüququnun obyekti olan əsərlər kimi çıxış etməsi və buna görə də qonorarların (royaltinin) verilməsi məsələlərinin mürəkkəbliyi qaçılmazdır. Əsasən informasiya xarakterli məlumatların əldə edilməsi üçün səfərə çıxan jurnalistlərin zəruri çəkilən xərclərinin özəllikləri vardır ki, bu xərclər digər ezamiyyə və ya səfər xərclərindən köklü olaraq fərqlənirlər. ƏDV ödəyicisi olan KİV-lərin əsas gəliri kimi çıxış edən reklam gəlirlərinin əldə edilməsi və bununla bağlı xərclərin ayrıca aparılması mütləq şərtdir.

Bütün bu özəllikləri nəzərə alaraq, KİV-lərdə aparılacaq auditin əsas hədəfləri kimi aktuallığı ilə seçilən aşağıdakı istiqamətlərə daha diqqətlə yanaşılması tövsiyə olunur:

- KİV-lərdə baş verən qarışıq ezamiyyə əməliyyatları, informasiya axtarışında olanların xərcləri.
- KİV məhsullarının geri qaytarılması əməliyyatları və uçotu.
- Satışdan geri qaytarılan məhsulların saxlanılması, ləğv edilməsi, xərclərə silinməsi və bunun vergiyə təsiri.
- KİV məhsullarının əvəzsiz olaraq paylanması (pulsuz verilməsi).
- Qəzetlərin üzərində «pulsuz» yazılması anlayışı və onun vergiyə təsiri.
- Tirajla faktiki çap olunan sayın uyğunluğu.
- TV proqramlarının hazırlanmasında qonorarların tətbiqi məsələləri.
- Reklam qiymətlərinin formalaşması.
- ƏDV-dən azad olan əməliyyatların digərlərindən ayrı aparılması.

davamı növbəti sayımızda